# Holcim (Azərbaycan) Açıq Səhmdar Cəmiyyəti

Maliyyə hesabatları və
31 dekabr 2018-ci il tarixində bitən il üzrə müstəqil auditorun rəyi

Deloitte & Touche LLAC
Baku White City Office Building
25E Nobel ave.,
Baku, AZ1025,
Azerbaijan

Tel.: +994 (12) 404 12 10
Fax: +994 (12) 404 12 11
deloitte.az

# MÜSTƏQİL AUDİTORUN HESABATI

"Holcim (Azərbaycan)" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarına və Rəhbərliyinə

## Rəy

Biz "Holcim (Azərbaycan)" Açıq Səhmdar Cəmiyyətinin ("Şirkət") 31 dekabr 2018-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə bitən il üzrə məcmu gəlirlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, maliyyə hesabatlarına qeydlərdən, habelə mühüm mühasibat uçotu qaydalarının icmalından ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Fikrimizcə, maliyyə hesabatları 31 dekabr 2018-ci il tarixinə Şirkətin maliyyə vəziyyətini və həmin tarixdə bitən il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq bütün əhəmiyyətli hallarda düzgün əks etdirir.

## Rəy üçün əsas

Biz auditi Beynəlxalq Audit Standartlarına ("BAS") müvafiq olaraq həyata keçirdik. Həmin standartlar üzrə məsuliyyətimiz daha sonra hesabatın *Maliyyə Hesabatlarının Auditi üçün Auditorun Məsuliyyəti* bölməsində təsvir olunur. Biz, Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının ("İESBA") *Peşəkar Mühasiblər üçün Etika Məcəlləsinə* ("İESBA Məcəlləsi") uyğun olaraq Şirkətdən asılı olmadan fəaliyyət göstəririk və digər etika öhdəliklərimizi İESBA Məcəlləsinə uyğun olaraq yerinə yetirmişik. Hesab edirik ki, audit rəyi bildirmək üçün əsas verən yetərli və uyğun audit sübutu əldə etmişik.

## Maliyyə hesabatları üzrə rəhbərliyin və idarəetmə səlahiyyətləri olan şəxslərin məsuliyyəti

Rəhbərlik hazırkı maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsinə, eləcə də saxtakarlıq, yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq rəhbərliyin qənaətinə əsasən mühüm təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanması üçün zəruri sayılan daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən rəhbərlik Şirkəti ləğv etmək və ya əməliyyatlarını dayandırmaq niyyətində olduğu və ya bundan başqa heç bir real alternativinin olmadığı hallar istisna olmaqla, Şirkətin öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməsi qabiliyyətinin qiymətləndirilməsinə, uyğun olduqda fasiləsizlik prinsipi ilə bağlı məsələlərin açıqlanmasına və mühasibat uçotunun fasiləsizlik prinsipindən istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyətləri olan şəxslər Şirkətin maliyyə hesabatı prosesinə nəzarətin təmin edilməsinə cavabdehdir.

Deloitte refers to one or more of Deloitte Touche Tohmatsu Limited, a UK private company limited by guarantee ("DTTL"), its network of member firms, and their related entities. DTTL and each of its member firms are legally separate and independent entities. DTTL (also referred to as "Deloitte Global") does not provide services to clients. Please see www.deloitte.com/about for a more detailed description of DTTL and its member firms.

© 2019 Deloitte & Touche LLAC All rights reserved.

**Maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti**

Məqsədimiz ümumilikdə maliyyə hesabatlarında saxtakarlıq və ya səhvlər nəticəsində yarana biləcək mühüm təhriflərin olmaması barədə kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə əks etdirən audit hesabatını hazırlamaqdır. Kifayət qədər əminlik yüksək dərəcədə əminliyi əks etdirir, lakin bu, BAS əsasında aparılan auditin hər zaman bütün mühüm səhvləri (əgər varsa) aşkar edəcəyinə zəmanət vermir. Təhriflər saxtakarlıq və ya səhv nəticəsində yarana bilər və ayrı-ayrılıqda və ya birlikdə, istifadəçilərin hazırkı maliyyə hesabatları əsasında verdiyi iqtisadi qərarlara əsaslı şəkildə təsir etmə ehtimalı olduqda əhəmiyyətli hesab edilir.

BAS əsasında aparılmış auditin bir hissəsi kimi, biz audit zamanı peşəkar mühakimələr yürüdür və peşəkar inamsızlığı qoruyub saxlayırıq. Həmçinin biz:

- Maliyyə hesabatlarının saxtakarlıq və ya səhv nəticəsində əhəmiyyətli şəkildə təhrif olunması risklərini müəyyən edir və qiymətləndirir, həmin risklərin aradan qaldırılması üçün audit prosedurlarını planlaşdırıb yerinə yetirir və rəyimizin əsasını təşkil edəcək yetərli və uyğun audit sübutu əldə edirik. Saxtakarlıq nəticəsində yaranan əhəmiyyətli səhvlərin aşkar olunmaması riski səhv nəticəsində yarananlardan daha yüksəkdir, belə ki, saxtakarlığa gizli sövdələşmə, dələduzluq, qəsdən buraxılmış səhvlər, məlumatların təhrif olunması və ya daxili nəzarətlə bağlı vəzifədən sui-istifadə kimi fəaliyyətlər daxil ola bilər.
- Şirkətin daxili nəzarət sisteminin effektivliyi barədə rəy ifadə etmək üçün deyil, şəraitə uyğun audit prosedurlarının planlaşdırılması məqsədilə auditlə əlaqəli daxili nəzarət barədə anlayış əldə edirik.
- Rəhbərlik tərəfindən istifadə olunan mühasibat uçotu qaydalarının uyğunluğunu, habelə yerinə yetirilən mühasibat qiymətləndirmələrinin və aidiyyəti açıqlamaların düzgünlüyünü qiymətləndiririk.
- Mühasibat uçotunun fasiləsizlik prinsipindən rəhbərliyin uyğun şəkildə istifadə etməsi və əldə olunmuş audit sübutu əsasında gələcəkdə Şirkətin öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməsinə mühüm şübhə yarada bilən hadisə və ya şəraitlərlə bağlı mühüm qeyri-müəyyənliyin mövcud olub-olmaması barədə qərar veririk. Biz mühüm qeyri-müəyyənliyin olması qənaətinə gəldikdə, audit hesabatımızda maliyyə hesabatlarının müvafiq açıqlamalarına diqqət yetirməli və ya belə açıqlamalar yetərli olmadıqda rəyimizə düzəliş etməliyik. Nəticələrimiz audit hesabatımızın tarixinədək əldə olunan audit sübutuna əsaslanır. Bununla belə, gələcək hadisələr və şəraitlər Şirkətin öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməsinə mane ola bilər.
- Maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu, tərkibini, habelə açıqlamaları və bu maliyyə hesabatlarının mühüm əməliyyat və hadisələri ədalətli şəkildə əks etdirib-etdirməməsini qiymətləndiririk.

Biz idarəetmə səlahiyyətləri olan şəxslərə digər məsələlərlə yanaşı auditin iş həcmi və müddəti, audit üzrə aşkar olunan mühüm nəticələr, habelə audit zamanı daxili nəzarət sahəsində aşkar etdiyimiz bütün mühüm çatışmazlıqlar barədə məlumat veririk.

Deloitte & Touche LLAC

15 Fevral 2019-cu il
Bakı, Azərbaycan Respublikası

## HOLCIM (AZƏRBAYCAN) AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

### 31 DEKABR 2018-Cİ İL TARİXİNƏ
### MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT
***('000 Azərbaycan Manatı ilə)***

| | Qeydlər | 2018 | 2017 |
|---|---|---|---|
| Gəlir | 6 | 116,332 | 106,998 |
| Satışın maya dəyəri | 7 | (64,133) | (60,221) |
| **Ümumi mənfəət** | | **52,199** | **46,777** |
| Çatdırılma xərcləri | 8 | (15,394) | (12,595) |
| Ümumi və inzibati xərclər | 9 | (10,911) | (12,555) |
| Əmlak, qurğu və avadanlığın silinməsi üzrə zərər | | (5) | (147) |
| Satış xərcləri | 10 | (5,520) | (5,613) |
| **Əməliyyat mənfəəti** | | **20,369** | **15,867** |
| Maliyyə gəliri | | 3 | 46 |
| Maliyyə xərci | 11 | (9,874) | (11,395) |
| Məzənnə fərqindən gəlir/ (zərər), xalis | | 973 | (1,502) |
| **Vergidən əvvəl mənfəət** | | **11,471** | **3,016** |
| Mənfəət vergisi xərci | 12 | (4,404) | (1,257) |
| **İl üzrə mənfəət** | | **7,067** | **1,759** |
| **İl üzrə cəmi məcmu gəlir** | | **7,067** | **1,759** |

## HOLCIM (AZƏRBAYCAN) AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

### 31 DEKABR 2018-Cİ İL TARİXİNƏ
### MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
***('000 Azərbaycan Manatı ilə)***

| | Qeydlər | 2018 | 2017 |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Əmlak, qurğu və avadanlıq | 13 | 261,162 | 273,486 |
| Qeyri-maddi aktivlər | | 997 | 1,157 |
| Digər uzunmüddətli aktivlər | 14 | 10,535 | 10,591 |
| Təxirə salınmış vergi aktivi | 12 | 7,006 | 11,410 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **279,700** | **296,644** |
| **Cari aktivlər** | | | |
| Mal-material ehtiyatları | 15 | 12,396 | 10,022 |
| Ticarət və digər debitor borcları | 16 | 9,424 | 6,981 |
| Vergi üzrə debitor borcları | 17 | 330 | 165 |
| Əvvəlcədən ödəmələr və avanslar | | 2,453 | 1,435 |
| Əlaqəli tərəflərdən alınacaq vəsaitlər | 19 | 452 | 215 |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 18 | 3,631 | 5,823 |
| **Cəmi cari aktivlər** | | **28,686** | **24,641** |
| **Cəmi aktivlər** | | **308,386** | **321,285** |
| **Kapital və öhdəliklər** | | | |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | 20 | 31,813 | 31,813 |
| Əlavə ödənilmiş kapital | | 3,302 | 3,302 |
| Bölüşdürülməmiş mənfəət | | 94,880 | 87,813 |
| **Cəmi kapital** | | **129,995** | **122,928** |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Əlaqəli tərəfə ödəniləcək kreditlər | 21 | 148,307 | 151,754 |
| Ehtiyatlar | 22 | 4,731 | 4,618 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **153,038** | **156,372** |
| **Cari öhdəliklər** | | | |
| Ticarət kreditor borcları | 23 | 4,649 | 5,638 |
| Digər ödəniləcək qısamüddətli kreditlər | 24 | 2,852 | 32 |
| Əlaqəli tərəfə ödəniləcək kreditlər | 21 | 210 | 26,479 |
| Əlaqəli tərəflərə ödəniləcək hesablanmış öhdəliklər | 19 | 1,543 | 1,525 |
| Hesablanmış öhdəliklər | 24 | 7,959 | 1,863 |
| Ödəniləcək dividendlər | | 58 | 58 |
| Müştərilərdən alınmış avanslar | | 1,998 | 1,121 |
| Ehtiyatlar | 22 | 6,084 | 5,269 |
| **Cəmi Cari öhdəliklər** | | **25,353** | **41,985** |
| **Cəmi kapital və öhdəliklər** | | **308,386** | **321,285** |

## 31 DEKABR 2018-Cİ İL TARİXİNƏ
## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
*('000 Azərbaycan manatı ilə)*

| | Qeydlər | 2018 | 2017 |
|---|---|---|---|
| Əməliyyat fəaliyyəti | | | |
| Vergidən əvvəl mənfəət | | 11,471 | 3,016 |
| Vergidən əvvəl mənfəəti xalis pul vəsaitlərinin hərəkəti ilə üzləşdirmək məqsədilə aparılmış qeyri-nağd düzəlişlər | | | |
| Köhnəlmə və amortizasiya | 13 | 16,094 | 16,264 |
| Bank komissiyaları istisna olmaqla maliyyə xərcləri | 11 | 9,874 | 10,894 |
| Əmlak, qurğu və avadanlığın silinməsi üzrə gəlir | | 5 | 147 |
| Məzənnə fərqindən (gəlir)/ zərər | | (973) | 1,502 |
| Mal-material ehtiyatları üçün ehtiyat | 15 | 500 | 645 |
| Ümidsiz borclar üçün ehtiyatın bərpası | 16 | (661) | 1,306 |
| Vergi cərimələri üçün ehtiyat | 22 | 290 | 1,943 |
| Mükafatlar üçün ehtiyat | 22 | 1,750 | 1,400 |
| Sahənin bərpa edilməsi üçün ehtiyat | 22 | – | 558 |
| Obyektin sökülməsi ilə bağlı ehtiyat | 22 | – | 650 |
| Xəsarət halları üçün ehtiyatın bərpası | 22 | (113) | (110) |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəl əməliyyat mənfəəti** | | **38,237** | **38,215** |
| Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklər | | | |
| Mal-material ehtiyatlarında (artım)/azalma | | (2,873) | 225 |
| Ticarət və digər debitor borclarında (artım)/azalma | | (1,782) | 6,471 |
| Əvvəlcədən ödəmələr və avanslar | | (1,017) | (287) |
| Əlaqəli tərəflərdən alınacaq vəsaitlərdə artım | | (238) | (185) |
| Vergi üzrə debitor borclarında (artım)/azalma | | (165) | 527 |
| Ticarət və digər kreditor borclarında azalma | | (877) | (3,848) |
| Hesablanmış öhdəliklər artım | | 5,796 | 414 |
| Əlaqəli tərəflərə ödəniləcək hesablanmış öhdəliklərdə artım/(azalma) | | 22 | (6) |
| Müştərilərdən alınmış avanslarda artım | | 877 | 124 |
| Ehtiyatlarda azalma | | (1,225) | (1,294) |
| Əməliyyatlardan əldə edilmiş pul vəsaitləri | | 36,755 | 40,356 |
| Ödənilmiş faiz | | (10,102) | (10,829) |
| **Əməliyyat fəaliyyəti üzrə əldə edilmiş xalis pul vəsaitlərinin hərəkəti** | | **26,653** | **29,527** |
| İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti | | | |
| Əmlak, qurğu və avadanlığın alınması | | (4,003) | (3,755) |
| Əmlak, qurğu və avadanlığın satılmasından daxilolmalar | | 55 | – |
| **İnvestisiya fəaliyyəti üzrə istifadə edilmiş xalis pul vəsaitlərinin hərəkəti** | | **(3,948)** | **(3,755)** |
| Maliyyələşdirmə fəaliyyətindən pul vəsaitlərinin hərəkəti | | | |
| Faiz hesablanan kreditlərin qaytarılması | | (24,897) | (24,082) |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə istifadə edilmiş xalis pul vəsaitlərinin hərəkəti** | | **(24,897)** | **(24,082)** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis (azalma)/artım** | | **(2,192)** | **1,690** |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri, ilin əvvəlinə | 18 | 5,823 | 4,133 |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri, ilin sonuna** | **18** | **3,631** | **5,823** |

**HOLCİM (AZƏRBAYCAN) AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

**KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**
*('000 Azərbaycan manatı ilə)*

| | Nizamnamə kapitalı | Əlavə ödənilmiş kapital | Bölüşdürülməmiş mənfəət | Cəmi |
|---|---|---|---|---|
| **1 yanvar 2017-ci il tarixinə qalıq** | **31,813** | **3,302** | **86,054** | **121,169** |
| İl üzrə mənfəət | – | – | 1,759 | 1,759 |
| **31 dekabr 2017-ci il tarixinə qalıq** | **31,813** | **3,302** | **87,813** | **122,928** |
| İl üzrə mənfəət | – | – | 7,067 | 7,067 |
| **31 dekabr 2018-ci il tarixinə qalıq** | **31,813** | **3,302** | **94,880** | **129,995** |